**AZƏRBAYCAN RESPUBLİKASI**
**ENERGETİKA NAZİRLİYİNİN KOLLEGİYASI**

---

**QƏRAR**
**№ 01**

**Bakı şəhəri** **"28" fevral 2017-ci il**

**Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 3 aprel 2014-cü il tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.5-ci yarımbəndini rəhbər tutaraq və "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanının 12.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası **qərara alır**:

1. Azərbaycan Respublikasının Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 3 aprel 2014-cü il tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bənddə "Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik)" sözləri "Azərbaycan Respublikasının Energetika Nazirliyi (bundan sonra - Nazirlik)" sözləri ilə əvəz edilsin.

1.2. 2.2-ci bənddə "Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi" sözləri "Azərbaycan Respublikasının Energetika Nazirliyi" sözləri ilə əvəz edilsin.

1.3. 2.5-ci bənd aşağıdakı yeni redaksiyada verilsin:

"2.5. Elektron xidmət barədə məlumatlandırma: e-xidmet@minenergy.gov.az; (012) 598-16-53/54/55".

1.4. Mətn üzrə ismin müvafiq hallarında "Agentlik" sözləri ismin müvafiq hallarında "Nazirlik" sözləri ilə əvəz edilsin.

1.5. 1 və 2 nömrəli əlavələrdə "Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə" sözləri "Azərbaycan Respublikasının Energetika Nazirliyinə" sözləri ilə əvəz edilsin.

2. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil

edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

**Nazir** **Natiq Əliyev**